**“Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı”nın (Elektron Azərbaycan) aidiyyəti bəndləri üzrə icra vəziyyətinə dair məlumat**

| № | Tədbirin adı | Bəndin icrası ilə bağlı görülmüş işlər barədə məlumat |
|---|---|---|
| 7.2.2.3. | “Elektron bələdiyyə” pilot layihəsinin işlənilməsi və həyata keçirilməsi | “Elektron bələdiyyə” pilot layihəsinin həyata keçirilməsi məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən bələdiyyələrin seçilməsi ilə əlaqədar təşkil olunmuş görüşdə Vergilər Nazirliyinin nümayəndəsinin iştirakı təmin edilmişdir. Bu məqsədlə Şamaxı rayonunun bir neçə bələdiyyəsi seçilərək müvafiq şirkətlərlə danışıqlar aparılmış və şirkətlərin nümayəndələri həmin bələdiyyələrin gördüyü işlərlə tanış olaraq pilot layihənin həyata keçirilməsi məqsədilə texniki şərtlər hazırlanmışdır. Yerli vergi və rüsumların hesablanıb ödənilməsi işlərinin texniki layihəsinin hazırlanmasında Vergilər Nazirliyinin əməkdaşı iştirak etmişdir. |
| 7.2.3.4. | Banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın təşkili | Banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın təşkili sahəsində 2010-cu il ərzində vergi orqanları ilə bank idarələri arasında “on-lıne” rejimində məlumat mübadiləsinin həyata keçirilməsi məqsədi ilə qarşılıqlı şəkildə ötürüləcək məlumatların növləri və formatları müəyyənləşdirilmişdir. Eyni zamanda bank idarələrinin texniki imkanları və bank daxili şəbəkələrin mövcud vəziyyətləri öyrənilmiş və məlumat mübadiləsinin tənzimlənməsi müvafiq protokollarla razılaşdırılmışdır.<br>Bundan əlavə hesabat dövründə banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın təmin edilməsi ilə bağlı zəruri proqram təminatı yaradılmışdır.<br>2010-cu il ərzində 9 bankda hesabları olan vergi ödəyicilərinə sərəncamların elektron formada göndərilməsi işləri təmin edilmişdir.<br>2011-ci ildə banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın təşkili üzrə bank idarələri ilə elektron məlumat mübadiləsinin hüquqi cəhətdən tənzimlənməsi məqsədi ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Mərkəzi Bank arasında “Kollektiv Saziş” imzalanmış və müvafiq banklarla vergi orqanları arasında hesabların açılması üçün şəhadətnamə-dublikatların və hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün sərəncamların elektron mübadiləsinə başlanılmış və bununla da, hal-hazırda respublikamızda fəaliyyət göstərən kommersiya banklarından 37-nin elektron mübadiləyə qoşulması təmin olunmuşdur. |
| 7.2.3.10. | Sahibkarlıq fəaliyyəti sahəsində universal telefon rabitə | 2010-cu ildə “Sahibkarlıq fəaliyyəti sahəsində universal telefon məlumat xidmətinin yaradılmasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə ünvanlanmış 27 sentyabr 2010-cu il tarixli məktubla “Sahibkarlıq fəaliyyəti sahəsində universal telefon məlumat xidməti”nin təşkil edilməsi ilə bağlı təkliflər verilmiş və bu sahədə görüləcək işlərin sistemli və əlaqəli şəkildə aparılması məqsədilə sahələrarası işçi qrupunun yaradılmasına dair müraciət edilmişdir. Azərbaycan Respublikasının Baş Nazirinin 29 sentyabr 2010-cu il tarixli dərkənarına əsasən aidiyyəti |

| | | |
|---|---|---|
| | xidmətinin yaradılması | nazirliklərə rəy bildirilməsi tapşırılmışdır.<br>Yuxarıda qeyd olunanlarla əlaqədar Vergilər Nazirliyinin 22 oktyabr 2010-cu il tarixli əmri ilə "Sahibkarlıq fəaliyyəti sahəsində universal telefon məlumat xidməti"nin yaradılması məqsədilə zəruri olan işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etmək üçün Vergilər Nazirliyində işçi qrupu yaradılmış və ona müvafiq tapşırıqlar verilmişdir.<br>2011-ci il ərzində Vergilər Nazirliyinin 195 Telefon Məlumat Xidmətinin və ayrı-ayrı dövlət orqanlarındakı analoji xidmətlərin vahid telefon məlumat xidmətinə inteqrasiya olunmasına dair aidiyyəti şirkətlərlə danışıqlar aparılaraq smeta müəyyənləşdirilmiş və "Sahibkarlıq fəaliyyəti sahəsində universal telefon məlumat xidməti"nin yaradılması haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinə layihə təqdim edilmişdir.<br>Nazirlər Kabineti tərəfindən müvafiq qurumlara yaradılacaq işçi qrupunda səlahiyyətli nümayəndələrinin iştirakı, texniki ekspertizanın aparılması və suallara cavab verilməsi barədə 09.12.2011-ci il tarixli 17/17/3971-26/14/18/22 nömrəli məktubla tapşırıq verilmiş və Vergilər Nazirliyinin 26.04.2012-ci il tarixli əmri ilə aidiyyəti qurumların, o cümlədən Maliyyə Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyinin, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin nümayəndələrdən ibarət İşçi qrupu yaradılmışdır.<br>. |